# M.HADİ T.FİKRƏT VƏ ONUN ƏDƏBİ İRSİ HAQQINDA

Məhəmməd Hadinin XX əsr Türkiyə ədəbiyyatında yaradıcılığından bəhrələndiyi şairlərdən biri Tovfiq Fikrətdir (1867 - 1915). M.Hadi T.Fikrətə həm ayrılıqda şeir və məqalə həsr etmiş, həm də müxtəlif şeir və məqalələrində onun şəxsiyyət və yaradıcılığına münasibət bildirmişdir.

Müşahidələr göstərir ki, T.Fikrətin adı M.Hadinin şeirlərində ilk dəfə "Əsatiri-əvvəlinə" əsərində çəkilir. Azərbaycan dövrü mətbuatında çıxmayan və M.Hadinin çap olunmuş kitablarına düşməyən "Tovfiq Fikrət bəyə" ithaf - epiqrafı ilə "Məhtab" jurnalının 10 iyul 1911-ci il tarixli birinci nömrəsində çıxan bu şeir həmin illərdə Türkiyədə T.Fikrətin əleyhinə başlanan çıxışlara qarşı şairi müdafiə etmək niyyəti ilə yazılmışdır. Şairə müxalif olan zəmanəni, ona qarşı aparılan haqsız təbliğatlarda iştirak edən qələm sahiblərini "həqiqəti yeyən, ziyaları içən, ziyaları qətl edib dühaları boğan, doğru danışan dilləri susduran, ayaq basdıqları zəmiləri yandırıb məzara döndərənlər" hesab edən şair yazır:

Məqhurusan, səfil!... Səni anlayanların,
Qəhharısan, yazıq... Səni rəhbər sananların.

M.Hadinin bilavasitə T.Fikrətə həsr etdiyi ikinci şeir "Tovfiq Fikrətə" adlanır. "Rübab" jurnalının 1911-ci ilin yanvar ayında çıxan ilk nömrəsində dərc olunan yeddi bəndlik şeirində T.Fikrəti şeirin, ədəbin şöləsaçanı, dilsiz vətənin danışan dili, irfan göylərinin parlaq ulduzu kimi dəyərləndirən şair bu qənaətdədir ki, heç bir yersiz tənqid və iftira onun türk ədəbiyyatında və ictimai fikirində tutduğu yüksək mövqeyə xələl gətirə bilməyəcəkdir. Şeirin sonunda üzünü T.Fikrətə tutaraq tam qətiyyətlə deyir:

Ey dəsti-hünər, dəsti-ədəb, dəsti-rəhasaz,
Alqışlayan əllər səni, əlbəttə,qırılmaz!

"Rübab" jurnalının 16 may 1911-ci ildə çıxan 6-cı nömrəsində dərc olunan "İstifham" şeirində M.Hadi T.Fikrəti yenə də xatırlayır, onun susqunluğundan, mətbuatda görünməməsindən pəjmürdə olaraq yazır:

Neçün tərənələr uşmaz rübabi-Fikrətdən,
Uzaqmı yoxsa o da nəğməyi-həqiqətdən?

M.Hadinin T.Fikrətə həsr etdiyi daha iki şeiri vardır ki, bunlardan biri "Bir iştikayi-möhriq... Çeşmi-ədəb bu gün ədəbiyyata ağlayır" adı ilə "Səda" qəzetinin 18 mart 1911-ci il tarixli 60-cı nömrəsində, digəri isə "Xəluqun pədəri" adı ilə "İqbal" qəzetinin 24 iyul 1914-cü il tarixli 691-ci nömrəsində dərc olunmuşdur. Birinci şeirin altında belə bir imza qoyulmuşdur: "Tənin" qəzeti mühərrirlərindən Ə.M.Hadi".

Birinci şeirdə T.Fikrəti türk şeirinin ən böyük simalarından biri kimi dəyərləndirən, onun "Sis", "Rübabi-şikəstə" mənzumələrini milli düşüncənin formalaşması və inqilabi fikrin oyanışına güclü təkan verən əsərlər hesab edən, "Maziyə, zülmə, zülmətə üsyan edən qələm - Xamən deyilmidir sənin, ey nami-möhtərəm!"- deyə T.Fikrətə müraciət edən şair əsərini T.Fikrətin yaradıcılığına yaraşan aşağıdakı misralarla tamamlayır:

Öksüz fikirlərin pədəri-sayədarısan,
Aqil böyüklüyün bizə bir yadigarısan.
Biz də həyat istəriz, ey xaliqül-ədəb,
Parla ziyalarınla, əya bariqül-ədəb!

"Xəluqun pədəri" şeirinin ilk misraları "Tovfiq Fikrət" şeirinin ilk misraları ilə az qala üst-üstə düşür. On altı beytlik şeirin on beçinci beytinin ilk beytinin yeinə ....... (nöqtələr) qoyulmuşdur.

Ey bakirə əşar doğan şeiri Məsihi,
Ey türklərin şairi-fəyyazü fəsihi.
Küsmə, yenə ol samei-ruhi-əbəbiyyat,
Həp mürdədimağız, bizi canlat, bizi parlat, -

deyə T.Fikrətə müraciət edən şair, onun böyüklüyünü qiymətləndirməyi bacarmayan türk-müsəlman qövmünə acımağı da yaddan çıxarmır. Qeyd edir ki, əgər Qərb belə bir düha doğsaydı, onun dahiliyi təqdir olunar, əsərləri təkrar-təkrar çap olunub yayılardı. Əfsus ki, Şərq bunu anlamır və ya anlamaq istəmir. Bəlkə, bu ondan irəli gəlir ki, "möhtaci-ziya" olan Şərq hələ də qəflət yuxusundan oyanmaq iqtidarında deyil.

Məhəmməd Hadi "Mülhiməyi-əşar", "Qardaş sevgisi" şeirlərində, "Osmanlı ədəbiyyatında parlaqlıq" məqalələrində də T.Fikrətin adını çəkmiş, fikirlərini əsaslandırmaq üçün onun bəzi misralarından istifadə etmişdir.

M.Hadinin T.Fikrətə həsr etdiyi ən dəyərli əsəri isə "Səda" qəzetində dərc etdirdiyi və müəllifdən ədəbiyyatşünas kimi danışmağa imkan yaradan "Ədəbiyyat müştaqlarına bir bəşarət" məqaləsidir("Səda" qəzeti, 12,13,14 iyun 1911-ci il, №89, 90, 91). Bu əsri müəllif İstanbulda yaşayıb "Tənin" qəzetində çalışarkən yazmış, Bakıya, Türkiyəyə gedənə qədər çalışdığı və H.Vəzirovunredaktoru olduğu "Səda" qəzetinə göndərmişdir. M.Hadi eyni zamanda onu da vurğulamışdır ki, bundan sonra Türkiyədə yazdığı şeir və məqalələri çap olunmaq üçün Bakıya göndərəcəkdir.

"Ədəbiyyat müştaqlarına bir bəşarət" məqaləsi ən əvvəl Tovfiq Fikrəti bir şair və şəxsiyyət olaraq Azərbaycan oxucusuna tanıtdırmaq baxımından dəyərlidir. Əsər eyni zamanda Azərbaycanda T. Fikrət haqqında yazılan ilk tədqiqlərdən biri kimi diqqəti çəkir və hesab edirik ki, bu gün də qiymətli mənbə olaraq əhəmiyyətini saxlamaqdadır.

T.Fikrəti sevən, onun poeziyasına yüksək dəyər verən M.Hadi onu Azərbaycan ədəbi ictimaiyyətinə Türkiyə ədəbiyyatının "ən nəcib, ən pak və dirəxşan bir siması" kimi təqdim edir. Onun tərcümeyi-halı barədə qısa məlumat verən M.Hadi 1283-cü ildə (miadi 1867 - T. A.) İstanbulda anadan olan T.Fikrətin bir şəxsiyyət, millətpərvər ziyalı və sənətkar kimi formalaşmasında mühitin polunu yüksək qiymətlədirir, bu böyük sənətkarı Azərbaycan oxucusuna yalnız şair kimi deyil, həm də mühərrir, müəllim və ictimai xadim kimi təqdim edir. M.Hadinin təqdimatından məlum olur ki, T.Fikrət İstambulda Avropa maarif sistemi əsasında qurulan "Sultani məktəbi"ndə təhsil almış, dünyəvi elmlər və Qərb mədəniyyəti ilə ilk dəfə burada tanış olmuşdur. Məktəbi bitirəndən sonra hazırlıqlı bir gənc müdavim olaraq burada saxlanılmış və müəllim kimi fəaliyyətə başlamışdır. Bir neçə illik pedaqoji fəaliyyətdən sonra həmin məktəbə müdir təyin olunan T.Fikrət məktəbə rəhbərlik etdiyi dövrdə bir çox müvəffəqiyyətlərə imza atmış və məktəbin gələcək inkişafı üçün dövlət tərəfindən verilən vədlərin yerinə yetirilməməsi, maliyyə problemləri və digər səbəblərdən dolayı məktəb müdirliyindən istefaya getməyə məcbur olmuşdur. "İstefasından sonra hər nə qədər mövqeyinə gəlməsi arzu edilmişsə:

Kimsədən ümmidi-feyz etməm, dilənməm pərü bal,
Kəndi cəvvim, kəndi əflakimdə kəndim tairəm.
Ənhəna tovqi-əsarətdən girandır boynuma,
Fikr hürr, irfanı hürr, vicdanı hürr bir şairəm,-

təranəsi ilə dəmsaz olan Fikrət bu arzuyu qəbul etməmiş"(№89), məktəbdən uzaqlaşsa da pedaqoji sahədən ayrılmamış, hazırda İstanbulda, Rumeli hasarında yerləşən Amerika müəssisəsi olan "Robert kollec"ində osmanlı - türk dili müəllimi kimi çalışmaqdadır. "Vəzifəyi-təlimiyyədən aldığı əcri-vəzfiə böyüklüyünə nisbətən pək az bulunan maaşına qənaət edib yaşayan", "zatən kəndisi də təntənəli, şəşəli yaşamaq istəməyən", "ancaq sadə bir həyat içində əhraranə dəmgüzari-zaman olmaq istədiyini söyləyən" T. Fikrətin hansı ideal və mərama sahib olduğunu oxuculara anlatmaq üçün M. Hadi onun "yeni meydana çıxan "Xəluqun dəftəri"ndən aşağıdakı misraları birlikdə oxumağı təklif edir:

Yox, yox mənim əqsayi-muradım,
Qarşımda bir dəbdəbə görmək, nə də gülgün.
Bir xəndəyi-pürqəmzəyi-iqbal,
Ey hirsi-zəlil, al, bütün amal,
Amali-zər, amali-müzəhhər sənin olsun.
Ancaq budur əqsayi-muradım:
Bir kölgə qədər hürr yaşasaydım,
Bulsaydı xəyalım buna imkan,
Ciddən yaşamaq nemət olurdu.
Heyhat,
İnsan mələk olsaydı, cahan cənnət olurdu. (№89)

Məqalədə maraqlı və düşündürücü məqamlardan biri də budur ki, M.Hadinin qənaətinə görə, müsəlman ölkələrinin əksəriyyətində olduğu kimi, Türkiyədə də şeirə, cənətə, maarif və mədəniyyətə yetərincə qiymət verilmir. T.Fikrətlə yanaşı Rza Tövfiqin də qaraguruh tərəfindən sıxışdırıldığını dilə gətirən M. Hadinin başlıca məqsədi T. Fikrət olduğundan onun ədəbi fəaliyyəti ilə bağlı aşağıdakıları "Səda"nın oxucularına çatdırır: "Tovfiq Fikrətin həyati-əbədiyyəsi iyirmi sənəlikdir. Kəndisi "Sərvəti-fünun" cəridəyi-əsbuiyyəsinə tarix intisabı olan 1311(miladi 1894-cü il - T.A.) sənəsindən xeyli zaman əvvəl şairi-madərzad ləqəbi ilə məruf mütəvəffa İsmayıl Səfa bəylə biliştirak bir ədəbi qəzetə çıxarmağa balamış və "Mirsad" ismi ilə çıxan bu cərideyi-ədəbiyyə çox davam etməmişdir.

1311 sənəsi iştə osmanlı ədəbiyyatının dövri-əxir feyzini əşar edər. Fikrət o dövrdə "Sərvəti-fünun"u idarə etməyə başlamış, bu ziyası səfvət və nəzahətdən mürəkkəb sitarəyi-novinin ətrafında az zaman sonra şəşəədar bir mənzuməyi-nücumi-ədəbiyyə təşkil etmişdir. Məşahri-şüəra və üdəbayi-osmaniyyədən Əbdülhəqq Hamid, Rəcaizadə ustad möhtərəm Əkrəm, Cənab Şəhabəddin, Hüseyn Cahid, Süleyman Nəzif, Əhməd Hikmət, Sami Paşazadə Səzai, Nəcib Asim, Əhməd Hikmət, sabiq maliyyə naziri Cavid, məxdum Kamal Əli Əkrəm, Əhməd Şüeyb bəylər də bu mənzumeyi-nücumi-ədəbə daxil olmuşlardır"(№89).

Məlum olduğu kimi, T. Fikrəti yeni türk ədəbiyyatının yaradıcılarından, əsas sütunlarından biri hesab olunur. Məhz bunları hiss edən və dəyərləndirən müəllif doğru olaraq qeyd edir ki, mühafizəkar ədəbiyyatçıların, ənənəçi və köhnə fikirlilərin yenilikçilərə, yeni yeni məzmun və formalara müharibə elan etdiyi bir vaxtda "Fikrətin parlaq qələmi türklərin əfkar və hissiyyatını təhzif və təsfiyə etdi. "Rübabi-şikəstə" şairi müqəllidlik bəliyyəsinin və haziryi-pakizəyi-əşar idxal edilən ovsax və müzəxrəfatı qəti surətdə təmizlədi".

T.Fikrəti "türklərin vəliyyün-nemətlərindən biri", bəlkə də birincisi kimi dəyərləndirən M.Hadi yeni türk-osmanlı şeirinin üslub, forma, məzmun, mündəricə və ideyaca kamilləşməsində də onun xidmətlərinə yüksək dəyər verir, şeir dilinin saflaşıb sadələşməsində, geniş kütlələrin başa düşəcəyi hala gəlməsininən çox onun adı ilə bağlı olduğu qənaətinə gələrək yazır: "Fikrətin lisani-nəzmə aid olan xidmətləri bundan daha az mühüm deyildir. "Xəluqun dəftəri" sahibi zaman nişatinə qədər yalnız təntənənin, ehtişamın, hay-huyun vasitəyi-təbliği olan lisaninəzmlə ən təbii, ən kirizan hissləri təsvir və ifadəyə müvəffəq olmuşdur. "Şahnamə" sahibi Firdovsi Bəhram Gurun vaqiəyi-qəhrəmananəsini nə təntənədar lisan ilə nasıl nəql edirsə, Fikrət də, məsələn bir zavallı köylü çöcuğunun ehtisasati-məsumanəsini sadə, təbbi bir lisan ilə silkinəzmə çəkir. Onun nəzmi məaseyi-vəzn inşaddan xali bir göftar, saf və mükəmməldir(№89).

T.Fikrətin yaradıçılıq labaratoriyasına bələd olan, onun mübariz və döyüşkən şeirlərinə ilham mənbəyi kimi baxan M.Hadi bidirir ki, "Fikrət həddi-zatında o qədər məyus və bədbin deyilsə də, dövrünün fəcayeyi, mühitinin dehayibüləndinə nisbətən əvvəl işi bu şairi məyus etmiş və bədbin mənzumələrini həp cəmiyyətin alamı ilə müləhhəm olaraq qələmə almışdır"(№90). Bu fikirləri söyləyən M.Hadi T. Fikrətin 1900-cu ildə, özünün təbiriycə desək, "istibdadın ən məşum bir dövründə qələmə alınmış" "Sis" əsərini misal gətirir və yazır: "Zülm və təğəlləb əleyhinə tovcih edilən xitabələrin ən ülvisi "Sis" mənzuməsidir. Sənələrcə müddət hürriyyətpərvəranın ləbi-təzim və ehtiramında təkərrür edən, bütün vicdanlara istibdad əleyhinə müdhiş bir kin aşılayan bu əmsalsız şeir ilə Fikrət kəndikəndinin şərəfinə heykəl rəkz etmiş oldu"(№90).

"Sis" mənzuməsindən kiçik bir parçanı nümunə gətirən M.Hadi bidirir ki, istibdad illərində yazılsa da, o zamanlar nəşrinə müvəffəq olmayan müəllif bu əsəri yalnız "elanihürriyyətdən sonra "Tənin"in birinci nüsxəsində" çap erdirə bilmişdir.

Müəllif T.Fikrətin "Rübabi-şikəstə" kitabının ikinci çapında gedən əsərlərinə, əsasən "Rücu" və "Tarix" əsərlərinə yüksək dəyər verir. Müəllif təəssüflə bildirir ki, T.Fikrətin adlarını çəkdiyi və çəkmədiyi onlarca əsəri yazıldığı illərdə nəşr olunsaydı, bunların azadlıq mübarizəlində, istiqlal savaşında bütün bəşəriyyətə, xüsusən də islam dünyasına böyük xeyri dəyərdi.

"Tarix" məzuməsini "şəbabi-münəvvərənin qəlbində yaşamaqda, pirayəyi-lisan ehtiramı olmaqda" olan "mənzumeyi-bədiyyə" kimi xarakterizə edən müəllif M.Hadi yazır: "Tarix" mənzuməsi qüyudati-hazirədən çılpaq doğmuş bir zadeyi-azadəxüram, bir məxluqi-nazəndə və sərbəst məramdır"(№90).

Fikrimizcə, M.Hadinin çöx doğru və haqlı olaraq qeyd etdiyi kimi, "bəzi şayani-ehtiram simalar yalnız mənsub olduqları millətin deyil, bütün insaniyyətin malıdır". Müəllif T. Fikrəti də mütəfəkkirlər zümrəsinə daxil edərək fikrini belə əsaslandırır: "Çünki məhsulati-fikriyyəsi sırf millətə aid olmayıb kütleyi-bəşəriyyətə aiddir. Bu zat millətini, vətənini nasıl sevərsə, alam ilə nasıl naləsaz təəssür olursa, fəlakət və səfalət içində yuvarlanan bütün insanları da sevər, ələm və müsibətlərinin tərcümani-fəlakətfəşanı olur"(№91).

M.Hadi azərbaycanlı oxuculara məsləhət bilir ki, T.Fikrətin ideal, amal və məramını anlamaq, insanlığa xidmət yollarının nədən ibarət olduğunu öyrənmək üçün "bu günlərdə saheyi-intişara çıxan "Xəluqun dəftəri"ni" oxusunlar. Nümunə üçün o, "Hilali-əhmər cəmiyyəti-nəcibəsi hüzurunda" adlı şeirdən bir parça verir.Məsələ aydınlaşsın deyə, Həmin parçadan bəzi misraları burada verməyi məqsədə uyğun hesab edirik:

Övladi-bəşər məhv edərək məhv olacaqdır,
Hər ləhzə bu vadiyi-bəla qan dolacaqdır.
Övladi-bəşr iştə şu üxluteyi-əzdad,
İblis, mələk, əql, cünun, şəfqətü bidad.
Həp təfriqə əkdikləri, biçdikləri həp kin,
Keçdikləri yerlərdəki iz bir xətti-xunin.
Qeybət və riya üzlərinin tabi-niqabı,
Qardaş qanı sairlərinin əski şərabı.
Başlar bütün əfraxteyi-qeydü məbalət,
Yalnız ayaq altına qalanlarda müsavat...
Qan səpiliyor, qan yağıyor, qan coşuyor, qan,
Bax halına, qafil, şu qızıl kütleyi-xüsran.
Heyhat, yazıqlar sənə, ey tinəti-xunxar! (№91)

Məqalənin sonunda M. Hadi bidirir ki, Azərbaycandan "Rübabi-şikəstə" və "Xəluqun dəftəri" kitablarını almaq istəyən olarsa, qəzetdə qeyd olunan ünvana müraciət etsinlər.

Nəticə etibarı ilə belə düşünmək olar ki, "Tənin" mühərrirlərindən Əbdülsəlimzadə Məhəmməd Hadi" imzası ilə çap olunan bu məqalə ilə, əslində T.Fikrətin Azərbaycanda öyrənilməsi və tədqiqinin tarixi qoyulmuş, T.Fikrət bir çox cəhətlərdən ilk dəfə olaraq Azərbaycan oxucusuna təqdim olunmuşdur.



*Təranə ABDULLAYEVA,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin böyük elm işçisi, f.ü.f.d., dosent*